# Azərbaycan Qarabağda konstitusion əsaslarını təmin edib

**Qüdrətli Azərbaycan daha bir möhtəşəm qələbəyə imza atdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı modern Azərbaycan Silahlı Qüvvələri cəmi bir gündə keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə Qarabağı qeyri-qanuni erməni silahlı birləşmələrindən təmizlədi. Ağ bayraq qaldıraraq təslim olan qanunsuz rejim Azərbaycanın şərtlərini qəbul etdiyini bildirdi.**

Sentyabrın 21-də isə Yevlax şəhərində tarixi görüş keçirildi. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti ilə Yevlax şəhərində ölkəmizin Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə baş tutan görüşdə qalib tərəf kimi Azərbaycanın mərkəzi hakimiyyəti bir daha öz şərtlərini diktə etdi.

Ümumiyyətlə, 44 günlük İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan məğlub Ermənistanı daim sülh müqaviləsi imzalamağa dəvət etsə də, qarşı tərəf hər dəfə müxtəlif bəhanələrlə bundan imtina edirdi. Bu azmış kimi Qarabağdakı qondarma cinayətkar rejimin qeyri-qanuni silahlı dəstələri mütəmadi olaraq atəşkəsi pozur, terror aktları törədir və silahı yerə qoymaq istəmirdilər.

2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli Bəyanata əsasən, Ermənistan Azərbaycan ərazisindən öz qoşunlarını çıxarmalı və sülh müqaviləsinin imzalanması üçün danışıqlar prosesinə başlamalı idi.

Ancaq bəyanatın əsas hissəsini - Azərbaycan ərazisindən qoşunlarının tamamilə çıxarılması öhdəliyini Ermənistan yerinə yetirmədi. Əksinə, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələri döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməllər həyata keçirildi. Son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb oldu.

Azərbaycan dəfələrlə bəyan edirdi ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq, Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin öz mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir. Azərbaycanın qeyd etdiyi bütün bu kimi məsələlər sentyabrın 19-da öz təsdiqini tapdı. Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatları və terror hücumları nəticəsində polis əməkdaşları, mülki şəxslər həlak oldular, iki hərbi qulluqçumuz yaralandı.

Elə buna cavab olaraq, üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Bu antiterror tədbirlərinin həyata keçirilməsi zamanı mülki əhali və infrastruktur obyektləri hədəfə alınmadı, yalnız legitim hərbi hədəflər sıradan çıxarıldı.

Azərbaycan Prezidenti, möhtərəm Ali Baş Komandan İlham Əliyevin siyasi qətiyyəti, diplomatik bacarığı, silahlı qüvvələrimizin qəhrəmanlığı və peşəkarlığı sayəsində antiterror tədbirləri 23 saata uğurla yekunlaşdı. Əfsuslar olsun ki, antiterror tədbirləri zamanı şəhidlərimiz də oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı əsgər və zabitlərimizə şəfa versin. Onlar Vətən, haqq-ədalət, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etdilər. Şəhidlərimizin əziz xatirəsi qəlbimizdə əbədi olaraq yaşayacaq.

44 günlük Vətən müharibəsi zamanı formalaşan mütəşəkkillik bu dəfə də özünü göstərdi. Ölkə ictimaiyyəti dövlət başçımızın ətrafında sıx birləşərək Azərbaycanın suverenliyi, inkişafı, daha da güclənməsi naminə birliyini növbəti dəfə nümayiş etdirdi. Bu dəfə də ölkədə fəaliyyət göstərən siyasi partiyalar Müzəffər Ali Baş Komandan İlham Əliyevi dəstəklədiklərini bəyan etdilər. Ölkədə fəaliyyət göstərən 23 siyasi partiya tərəfindən birgə bəyanat qəbul olundu. Azərbaycanın siyasi partiyaları cənab Prezidentin ölkəmizin



ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni silahlı birləşmələrinin təxribatlarının qarşısının alınması, işğaldan azad edilən torpaqlarımızda məskunlaşan minlərlə soydaşımızın təhlükəsizliyinin təmin olunması üçün həyata keçirdiyi siyasəti dəstəklədiklərini, onun ətrafında sıx birləşdiklərini bəyan etdilər.

Təəssüf ki, hakimiyyətin siyasi dialoqla bağlı bütün jestlərinə rəğmən öz xain mövqe və məkrli niyyətlərinə sadiq qalmış Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyası və Real Partiyası vətənsevər siyasi qüvvələrin bəyanatına imza atmaqdan imtina edərək bir daha öz xislətlərini nümayiş etdirdilər.

Bir vacib məsələyə də diqqət yetirək. Tarixi Şuşa Bəyannaməsindən sonra rəsmən strateji müttəfiqlik zirvəsinə ucalan qardaş Türkiyənin Prezidenti hörmətli Rəcəb Tayyib Ərdoğan BMT tribunasından bir daha Azərbaycanın haqq səsini ucaltdı və onu müdafiə etdiyini bəyan etdi: "Bir millət, iki dövlət" şüarı ilə hərəkət etdiyimiz Azərbaycanın ərazi bütövlüyünü qoruması üçün atdığı addımları dəstəkləyirik. Ermənistanın başda Zəngəzur dəhlizinin açılması olmaqla verdiyi sözləri yerinə yetirməsini gözləyirik. Artıq hamının qəbul etdiyi kimi, Qarabağ Azərbaycan torpağıdır. Bundan başda bir statusun zorla qəbul etdirilməsi əsla qəbul olunmayacaq". Türkiyə Prezidentinin çıxışı alqışlarla qarşılandı.

Hörmətli Ərdoğan bir daha nümayiş etdirdi ki, dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə bağlı, bir-birinə bu qədər yaxın münasibətlərdə olan ölkələrə rast gəlmək mümkün deyil.

Bir sözlə, Azərbaycan-Türkiyə münasibətləri bütün dünya üçün əsl örnəkdir. Dövlət başçımız, möhtərəm İlham Əliyevin söylədiyi kimi, "Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir".

Xüsusi olaraq vurğulamalıyam ki, rəhbərliyində təmsil olunduğum Qərbi Azərbaycan İcması hər zaman olduğu kimi, yenə də öz fəal mövqeyini nümayiş etdirdi və beynəlxalq ictimaiyyəti ədalətə çağırdı. Rəsmi İrəvanı hərbi təxribatlara görə öz bəyanatında qınayan icma Azərbaycan tərəfinin beynəlxalq hüququn norma və prinsipləri əsasında atdığı addımların Ermənistana sülhü və əməkdaşlığı seçmək imkanı yaratdığını bildirmişdir. O cümlədən Milli Məclisin Sədri, hörmətli Sahibə Qafarova, parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri və beynəlxalq parlament təşkilatlarında Azərbaycan nümayəndə heyətlərinin başçıları Qarabağda Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq həyata keçirilən antiterror tədbirləri barədə beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə və xarici ölkələrin parlamentlərinə müraciət ünvanladılar. Müraciətdə qeyd olunurdu ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü hər bir ölkənin suverenliyi və ərazi bütövlüyü qədər vacibdir və Azərbaycan beynəlxalq hüquqda əks olunmuş bütün vasitələrlə öz suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək hüququna malikdir.

Bir sözlə, Azərbaycan mövqeyində və tələbində haqlıdır. Azərbaycanın suveren ərazilərində öz qanunlarının aliliyi təmin olunmalıdır.

Möhtərəm Prezident xalqa müraciətində bir daha bəyan etdi ki, bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər. Dövlət başçımızın "Biz buna hazırıq və Azərbaycan xalqı bilir, əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir" kimi dəyərli fikirləri həqiqətən də Qarabağın erməni sakinləri üçün çox gözəl təklifdir. Çünki Azərbaycan vətəndaşlığını qəbul etməklə ermənilər ilk olaraq illərlə yaşadıqları zülmətdən qurtulmuş olacaqlar.

Cənab Prezidentin xalqa müraciətində dediyi kimi: "Bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də, nəhayət, rahat nəfəs ala bilər". Möhtərəm dövlət başçımız bir daha onlara çatdırdı ki, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Bütün bu proseslər həm də Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə müsbət təsirini göstərəcək.

***Əhliman ƏMİRASLANOV,***
***Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik***







Azərbaycan. - 2023.- 22 sentyabr.- S.5.